# BÖYÜK MƏZUNLARDAN BİRİ



Adil Ağa (Əhmədov Adil Qurban oğlu) paytaxtdan kənarda yaşayan yazarlarımızdandır. O, cəsarətli qələm sahibi kimi 70-ci illərin ikinci yarısından bəri mətbuatda öz üslubu və imici ilə fərqlənib. Adil Ağa 1951-ci ildə Astara şəhərində anadan olub. 1975-ci ildə ADPU-nun Filologiya faküləsini bitirib. Elə həmin zamandan üzü bəri mətbuatda çalışır. 1979-cu ildə Azərbaycan Jurnalist Sənətkarlığı İnstitutunun məzunu olub. Yaşadığı rayonun qəzetində jurnalist fəaliyyətinə başlayıb. Kəskin və iti qələmi, prinsipiallığı, satirik üslubu ilə fərqlənib. Müəyyən müddət icra orqanlarında məmur kimi də fəaliyyət göstərib. Onun adına müvafiq adillik fəaliyyəti haqqında indi də yaşadığı rayonda ağız dolusu danışırlar. Haqsızlığa qarşı barışmaz mübariz kimi tanınıb.

"Babamın yaddaşından yarpaqlar", "Narahat ruhların fəryadı", "Pərvanələr yanır", "Laləzar", "Sözüm ürəkdə qaldı" kitablarının müəllifidir. Adilin publisistik yaradıcılığını təqdim edən kitablarındakı mahiyyətin məzmunun cəmiyyət üçün nə qədər faydalı olduğunu onu tanıyan, mənəvi dəyərlərini kifayət qədər bilən bir şahid kimi yüksək səviyyədə qiymətləndirirəm. Ancaq Adilin sahib olduğu mənəvi imkanların bu kitablarla bitmədiyini də başa düşürəm. Xüsusilə onun sonuncu kitabının - "Sözüm ürəkdə qaldı" adı mənə çox şey deyir. Bunun mənasını oxucuya çatdırmaq istərdim.

Adil həqiqətən geniş mənəvi imkanlara malik müəlliflərdəndir. O, yaradıcılığını təkcə publisistika ilə məhdudlaşdırmaya da bilərdi. Şübhəsiz, ayrı-ayrı zamanlarda məmurluq fəaliyyəti, xüsusilə bölgə həyatının yaratdığı məhdudluq onun yaradıcılığının bədii imkanlarını xeyli çətinləşdirib. Hər halda Adil




ümumi axından kənarda qalmayıb. Əgər belə demək mümkünsə, zaman sellərinin qabağında itib-batmayıb. Son illərdə onun daha bir kitabı da işıq üzü görüb. "Məzunlar" adlanan həmin kitabın annotasiyasında yazılır: "Adil Ağa Əhmədovun bu kitabında Xalq Cümhuriyyətinin yaşıdı olan Astara təhsilinin, konkret olaraq şəhər 1 saylı orta məktəbin 100 il ərzində xalq maarif yolunda hər cür maneələri dəf edən, savadsızlığı aradan qaldırmaq uğrunda gecəli-gündüzlü bütün gücünü sərf edən ilk müəllimərin, məzunların həyatından müəyyən məqamları bədii-publisistik dillə əks olunur". Bu kitab əslində həm də Azərbaycan Xalq Cümhuriyyətinin şərəfli tarixinə sevginin bəhrəsidir.

Adil Ağa Əhmədli fədakar azərbaycançıdır. Özü də azərbaycançılıq idealının yorulmaz tərənnümçüsüdür. Onu da qeyd etmək lazımdır ki, bölgələrdə belə ziyalıların yaşaması, fəaliyyəti Azərbaycanın mənəvi sərhədlərinin toxunulmazlığı baxımından çox dəyərlidir.

Adil Ağa Əhmədli sözündə müdrikdir, idealında vətən aşiqidir. Şəxsiyyət kimi bütövdür. Cəmiyyətə ağıllı övladlar bəxş etmiş ailənin başçısıdır.

*Ə.ƏZİZLİ*